**Vergi maarifçiliyinin yeni tribunası**

Vergilər Nazirliyi nəzdində «Azərbaycan» İntellektual Oyunlar Klubu yaradılmışdır

Azərbaycanda intellektual oyunlara böyük maraq vardır və onlar sürətlə populyarlıq qazanaraq inkişaf edir. Azərbaycanlı bilicilər «Nə? Harada? Nə zaman?», «Breyn-rinq», «Xəmsə» kimi oyunlarda həm ölkə daxilində, həm də beynəlxalq miqyasda uğurlu nəticələr göstərirlər.

Bu uğurların başlıca hərəkətverici qüvvəsi gənclərdir və intellektual oyun klubları onların bilici olaraq yetişməsində əsas pay sahibidir. Təsadüfi deyil ki, ölkənin regionlarında intellektual klubların yaradılması məsələsi «Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramına» da daxil edilmişdir.

Vergilər Nazirliyi də bu hərəkatdan kənarda qalmayaraq intellektual oyunlar klubunun yaradılması təşəbbüsünə qoşulmuşdur. Qeyd etmək lazımdır ki, intellektual klubun yaradılması vergi mədəniyyətinin aşılanması, Vergilər Nazirliyinin müsbət imicinin formalaşdırılması, məlumatlandırma və təbliğat fəaliyyəti baxımından olduqca faydalıdır.

Vergilər Nazirliyinin nəzdindəki «Azərbaycan» intellektual oyunlar klubunda birinci oyun aprelin 15-də Azərbaycan Universitetində keçirilmiş, yeni intellektual klubun oyunu universitet tələbələri arasında böyük maraqla qarşılanmışdır. Vergilər Nazirliyinin əməkdaşı Aydın Piriyev tərəfindən təşkil edilmiş birinci oyunda 50-yə yaxın tələbə iştirak etmiş və iştirakçılar kifayət qədər yüksək nəticələr göstərmişlər. Layihəyə əsasən, mütəmadi olaraq tələbələr arasında iki dildə (rus və Azərbaycan) çempionat keçiriləcək, vaxtaşırı beynəlxalq və ölkə miqyasında «Azərbaycan» İntellektual Klubunun Kuboku təşkil olunacaqdır. Yarışların daha keyfiyyətli və maraqlı olması üçün sualların yazılmasına peşəkar redaktorların cəlb olunması və qaliblər üçün dəyərli hədiyyələrin müəyyən edilməsi nəzərdə tutulmuşdur.